

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 50-51 (7099-7100) ❁ Cümə, 5 iyul 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev Avropa Xalq Partiyasının Xarici Əlaqələr üzrə ekspert qrupunun həmsədri, İtaliyanın keçmiş xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

❁ ❁ ❁

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müsaid bin İbrahim bin Abdullah Əl-Səlimin etimadnaməsini qəbul etmişdir.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şirvan Şəhərinə səfəri olmuşdur. Səfər çərçivəsində Prezident bir sıra mühüm əhəmiyyətli obyektlərin açılış mərasimlərində iştirak etmişdir.

❁ ❁ ❁

Dövlətimizin başçısı İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi, onlara fəxri adların və ali xüsusi rütbələrin verilməsi haqqında sərəncam imzalamışdır.

❁ ❁ ❁

Prezident İlham Əliyev Yunanıstanın, Belçikanın və İtaliyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirlərini diplomatik fəaliyyətlərinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Barak Obamaya ölkəsinin milli bayramı-Müstəqillik günü münasibətilə təbrik məktub göndərmişdir.

❁ ❁ ❁

Dövlət başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasının, yenidənqurmadan sonra istifadəyə verilmiş Heydər Əliyev adına parkın və icra hakimiyyətinin inzibati binasının açılışında iştirak etmişdir.

❁ ❁ ❁

İyulun 3-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə olunub. Ölkələrimiz arasında əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb.

❁ ❁ ❁

Prezident İlham Əliyev ABŞ Müdafiə Nazirinin Rusiya, Ukrayna və Avrasiya üzrə müşavirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyi vurğulanmışdır.

**Miri RƏHİMOV.**

# Azərbaycan Polisinin yaranmasının 95 illiyi münasibətilə Polis Akademiyasında mərasim

### *Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan polisinin yaranmasının 95-ci ildönümü günündə—iyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Heydər Əliyev Mərkəzinin açılış mərasimində iştirak etmişdir.



Polis Akademiyasında dövlət başçısına daxili işlər naziri Ramil Usubov raport vermişdir. Sonra İlham Əliyev ulu öndər Heydər Əliyevin akademiyanın baş meydanında ucaldılmış abidəsi önünə gül dəstəsi qoymuş, mərkəzin rəmzi açılışını bildirən lenti kəsmişdir. Daha sonra cənab Prezident mərkəzdə yaradılmış şəraitlə tanış olmuşdur.

Ölkə başçısına bildirilmişdir ki, ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin peşəkarlığının artırılmasına daim diqqət yetirmişdir. Ümummilli liderin bu istiqamətdəki əvəzsiz xidmətlərini daxili işlər orqanlarının əməkdaşları daim ehtiramla yad edirlər. Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni inşa olunmuş Heydər Əliyev Mərkəzində yaradılmış şərait ulu öndərin mənalı həyatının və eləcə də müasir Azərbaycan tarixinin zəngin bir dövrünün öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Akademiyada yaradılan Heydər Əliyev Mərkəzində xalqımızın ümummilli liderinin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi və təbliğ olunması üçün bütün imkanlar yaradılmışdır.

Mərkəzin əsas vəzifəsi Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı materialların toplanması və kataloqlaşdırılmasından, Heydər Əliyev irsinə dair Polis Akademiyasında aparılan araşdırmaların təbliğindən, bu istiqamətdə plan və proqramların hazırlanmasından, onların maddi-texniki təminatı üçün tədbirlərin görülməsindən ibarətdir.







Heydər Əliyev Mərkəzinin ən müasir üslubda inşa olunmuş üçmərtəbəli binasında dahi rəhbərin büstü qoyulmuşdur. İkinci mərtəbədə ümummilli liderin həyatının və çoxşaxəli ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotostendlər, iki ayrı guşədə ona aid fərmanlar, müxtəlif sənədlər, ayrı-ayrı hissələrdə daxili işlər orqanları və polis haqqında dediyi müdrik kəlamların yazıldığı lövhələr, videogörüntüləri əks etdirən monitorlar yerləşdirilmişdir. Üçüncü mərtəbə akademiya heyətinin asudə vaxtının səmərəli keçirilməsi üçün nəzərdə tutlmuşdur. Buradakı fotostudiyalarda fotomateriallar toplanmış, bu materiallardan gələcəkdə müdavim və dinləyicilər Polis Akademiyasında keçirilən dərslərdə, slayd müsabiqələrində, treyniq və konfranslarda istifadə edə bilərlər. Şahmat dərnəyi otağı, virtual dərslərin keçirilməsi üçün sinif otaqları, xarici dil mərkəzi, elektron kitabxana da fəaliyyət göstərir. Birinci mərtəbəsi isə müxtəlif tədbirlərin, konfransların keçirilməsi üçün akt zalından, eləcə də istirahət guşələrindən ibarətdir.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili İşlər Nazirliyinin əməkdaşları ilə görüşmüş, Polis Günü münasibətilə onları təbrik etmiş, geniş nitq söyləmişdir(nitq mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur).

Mərasimdə daxili işlər naziri Ramil Usubov çıxış edərək, Prezident İlham Əliyevi şəxsən öz adından və şəxsi heyət adından salamlamış, Azərbaycan polisinin yaranma tarixindən və indiyədək keçdiyi yoldan danışmışdır.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Nadir ATAKİŞİYEV.**